# “Əsl, həqiqi dostlar çətin gündə səssiz qala bilməzlər”

## *Türkiyəli tanınmış vəkil Əhməd Atam qəzetimizə eksklüziv müsahibə vermişdir*



**Kütahya Vəkilllər Bürosunun rəhbəri Əhməd Atam sosial şəbəkələrdə maraqlı bir status paylaşıb: “Bosniya və Herseqovinanın ilk Prezidenti, görkəmli dövlət xadimi mərhum Aliya İzzetbeqoviç yazıb ki, müharibələr bitəndə, düşmənin sənin barədə dediklərini unutmaq olur, amma, dostların səssizliyi çox üzücü olur”.**

Türkiyəli vəkilin fikrincə, xoşbəxtlikdən, Türkiyə ilə Azərbaycan arasında heç vaxt belə hal yaşanmayıb, əksinə, bu iki dost və qardaş xalq tarix boyu bir-birinə arxa, həyan olublar. Bu gün də belədir. Ə.Atam sonra yazır: “Ermənistanın növbəti hərbi təcavüzü qarşısında Türkiyə qardaş Azərbaycanı tək qoya bilməzdi və sona qədər onun yanında olacaq”.

Bu statusdakı sözlər bizi çox təsirləndirdi və hörmətli Əhməd Atamla telefon bağlantısı yaratdıq. O, Bakıdan gələn zəngə çox sevinərək, böyük həvəslə suallarımızı cavablandırdı. Müsahibimizə ilk sualımız bu oldu:

***– Əhməd bəy, bu gün Kütahyadan, ümumiyyətlə, bütün Türkiyədə Qarabağda baş verənlər necə təsir bağışlayır?***

– Türkiyə, eləcə də Kütahya üçün can Azərbaycan olduqca əziz və doğma bir məkandır. Bu ilin 27 sentyabrında işğalçı Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzü Türkiyədə hər kəsdə dərin qəzəb və hiddət doğurub. Azərbaycan Ordusunun cavab əks-həmləsi ilə ilk gündən parlaq uğurlar qazanması, təbii ki, bizi çox sevindirir.

Tamamilə əminəm ki, Azərbaycan xalqının mərd, igid oğulları mütləq işğalçı ordunu öz doğma torpaqlarından qovub çıxaracaqlar və qədim Azərbaycan torpağı olan Qarabağda tarixi həqiqət bərpa olunacaq.

***– BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağın işğalına son qoyulması ilə bağlı dörd qətnamə qəbul edib, amma bu sənədlər 30 ilə yaxındır ki, icra olunmur. Sizcə, bu, niyə belədir?***

– Dünya çox yaxşı bilir ki, Ermənistan təcavüzkar dövlətdir. O, havadarlarının köməyilə zəbt etdiyi torpaqlarda etnik təmizləmə, soyqırımı həyata keçirib. Əslində, işğalçı Ermənistan törətdiyi ağır cinayətlərə görə ciddi cəzalandırılmalı idi. Fikrimcə, TŞ-nin qəbul etdiyi qətnamələrin icra olunmaması, təkcə kobud qanun pozuntusu deyil, həm də beynəlxalq hüququn ayaqlar altına atılmasıdır. Bütün bunlardan sonra, bəzi böyük güclərin Ermənistanın tərəfini tutması mənəvi cəhətdən də böyük ədalətsizlikdir.

Lakin ruhdan düşmək olmaz. Böyük Mövlanə deyib ki, yüz qaranlıqlar yığılsa belə, bir şamın şöləsini söndürə bilməz. Bu gün güc və ədalət Azərbaycanın tərəfindədir. Bu, çox vacibdir. Ədalət gücə söykənəndə yenilməz olur. Bu gün Azərbaycan öz halal haqqını tələb edir.

***– Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək istiqamətində atdığı zəruri addımların bəzi güclərdə narahatlıq doğurmasının səbəbini necə izah edərdiniz?***

– Onlar Azərbaycanın işğalçıya qarşı bu qədər güclü təpki göstərəcəyini gözləmirdilər. Azərbaycan cənab Prezident İlham Əliyevin müdrik liderliyi ilə çox güclənib. Bundan başqa, Türkiyə-Azərbaycan dövlətlərinin və xalqlarının birliyi ölkələrimizi regionda kifayət qədər təsirli gücə çevirib. Avropada və dünyanın bəzi yerlərində bunu həzm edə bilmir, özlərinin imperialist maraqları üçün təhdid hesab edirlər. Azərbaycan xalqı güclü və ədalətli xalqdır. Hazırda dövlət ilə xalq bir yumruq kimi birləşib. Sizdə gözəl bir misal var: “El bir olsa, dağ oynadar yerindən”. Azərbaycan bu gün, həqiqətən, tarix yazır.

Şəxsiyyətinə dərin hörmət bəslədiyim görkəmli siyasətçi Aliya İzzetbeqoviçdən başqa bir misal da çəkmək istərdim. O yazırdı: “Dövlət” kəlməsini yaddaşınıza birdəfəlik həkk edin. Dövlətin nə qədər önəmli oduğunu dərk etməliyik. Dövlətsiz bir millət boşluğa düşər, küləklər onu uçura bilər”.

Nə yaxşı ki, Azərbaycan dövləti güclü və qüdrətlidir. Azərbaycan lideri möhtərəm İlham Əliyev çox qətiyyətli siyasətçi və dövlət xadimidir.

***– Əhməd bəy, Qarabağın savaş meydanlarında Azərbaycan əsgərinə uduzan ermənilər dinc əhalini hədəfə alırlar. Dünya bunu məgər görmür?***

– Bu, beynəlxalq qanunların kobud şəkildə pozulmasıdır. Yeri gəlmişkən, Türkiyə və Azərbaycanın hüquqşünasları bu məsələni dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün lazımi işlər görürlər. Düşünürəm ki, Türkiyə və Azərbaycan mediası da bu istiqamətdə səylərini artırmalıdır. Qoy dünya görsün ki, özlərini yazıq və məzlum kimi təqdim etməyə çalışan ermənilər, əslində, nə qədər zalım və qəddardırlar.

***– Əhməd bəy, xalqımıza, Qarabağda vuruşan əsgərlərimizə nə arzulayardınız?***

– Azərbaycan xalqına sevgi və dualarımı göndərirəm. Allah xalqlarımızı, bütün qeyrətli övladlarımızı qorusun! Macal düşən kimi Azərbaycana, Qarabağa gələcəyəm. Böyük mədəniyyət mərkəzi olan gözəl Şuşanı öz gözlərimlə görmək arzusundayam.

Sonda bir daha vuğulamaq istəyirəm. Azərbaycan əsgəri oz doğma torpaqları uğrunda döyüşür. Bu ağır, çətin, ədalətli müharibədə haqlı tərəf, məhz sizsiniz, Azərbaycandır! Azərbaycanın bu savaşda böyük zəfər əldə edəcəyinə inanıram. Təki itkiləriniz az, uğurlarınız möhtəşəm olsun! Amin!

***Söhbəti qələmə aldılar:***
***İlqar RÜSTƏMOV,***
***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 6 oktyabr.- S.9.